# Azərbaycanın siyasi tarixində dönüş nöqtəsi

**1991-ci ilin axırlarında müstəqilliyini bərpa edən Azərbaycan xalqı hakimiyyətə gələn siyasi qüvvələrin səriştəsizliyi nəticəsində xaos, vətəndaş müharibəsi, iqtisadi böhran, ərzaq qıtlığı ilə üzləşməli oldu. Ölkəmizin hər yerində özbaşınalıq artdı, daxili stabillik, milli birlik pozuldu. Yaranan boşluqdan yararlanan Ermənistan Azərbaycana qarşı hərbi təcavüzünü daha da şiddətləndirdi. Müqəddəs torpaqlarımızı, ərazi bütövlüyümüzü qorumalı olan qüvvələrin başı isə Bakıda hakimiyyət uğrunda mübarizəyə qarışmışdı. Qoşun hissələri döyüş bölgələrindən çıxarılaraq Bakıya istiqamətləndirilirdi. Nəticədə torpaqlarımızın 20 faizi işğal olundu, minlərlə şəhid verdik, minlərlə vətəndaşımız əsir düşdü, bir milyondan artıq soydaşımız öz doğma el-obasından didərgin salındı. Böhran getdikcə dərinləşirdi. Azərbaycan parçalanmaq, müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi. Ümummilli mənafeyin şəxsi ambisiyalara qurban verilməsi o dövrdə hakimiyyətdə olan qüvvələrə xalqın inamını sarsıtdı. İnsanlar haqlı olaraq yeni qüvvə - xilaskar axtarışına çıxdı. Bütün diqqət, təbii olaraq, Naxçıvana yönəlmişdi. Xalqımız çox yaxşı başa düşürdü ki, dövlətimizi, ölkəmizi uçurumdan yalnız bir nəfər - ümummilli lider Heydər Əliyev çıxara bilər. Heç bir siyasi təcrübəsi olmayan başıpozuq bir qrupun yarıtmaz idarəçiliyi üzündən yox olmaq təhlükəsi ilə üzləşən dövlətimiz, itirilməkdə olan müstəqilliyimiz məhz Heydər Əliyevin böyük məharətinin sayəsində ayaqda qaldı, gücləndi.**

1993-cü ilin 15 iyun - Milli Qurtuluş Günü xalqımızın və dövlətimizin ictimai-siyasi həyatında ciddi dönüş yaradan tarixi hadisədir. Xalq haqlı olaraq Ulu öndər Heydər Əliyevin ətrafında birləşərək müstəqil Azərbaycan dövlətinin məhv olmasına, parçalanmasına imkan vermədilər. Bir məqamı da xüsusilə qeyd etmək lazımdır ki, 1992-ci ilin noyabrında Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılması və Heydər Əliyevin partiyaya sədr seçilməsi faktiki olaraq ölkədə müasir siyasi sistemin yaranmasına səbəb oldu. Çünki Yeni Azərbaycan Partiyası ovaxtkı antimilli iqtidara qarşı milli müxalifət kimi yaranmışdı. Yeni Azərbaycan Partiyasının yaranması bütün Azərbaycanda böyük əks-səda doğurdu. Qısa müddət ərzində partiya Azərbaycanın aparıcı siyasi qüvvəsinə çevrildi və Heydər Əliyevin siyasət olimpini fəth etməsinə böyük töhfələr verdi. YAP bu gün də Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Ulu Öndərin siyasi irsini ləyaqət və qürurla davam etdirir.

Xalqın çağırışlarını, ziyalıların, iqtidar mənsublarının təkidli xahişlərini nəzərə alaraq, 1993-cü il iyun ayının 15-də Azərbaycan Respublikası Milli Məclisinin fövqəladə sessiyasında gizli səsvermə yolu ilə Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməklə hakimiyyətə qayıtdı. Həmin il iyunun 24-də isə Milli Məclisin qərarı ilə prezident səlahiyyətləri Ali Sovetinin sədrinə - Heydər Əliyevə həvalə edildi. Ulu öndər Heydər Əliyev deyirdi: "Mənim heç bir silahım yoxdur: nə topum, nə tapançam, nə də avtomatım var. Mənim idrakım var, iradəm var və xalq mənə ümid bəsləyirsə, xalq mənə bu səlahiyyəti vermişdirsə, xalqı bu ağır vəziyyətdən çıxarmağı öz öhdəmə götürmüşəmsə, güman edirəm ki, xalq məni müdafiə edəcəkdir".

Yaxın keçmişimiz olan 1993-cü ildə baş verənlər unudulmayıb. Dövlət büdcəsi boşaldılmış, sərvətləri talan edilmiş, idarəçilik sistemi dağılmışdı. Xilaskarlıq missiyasını öz üzərinə götürən Ulu Öndər Bakıda hakimiyyət davasının getdiyi bir vaxtda həyatını təhlükə altında qoyaraq dərhal Gəncəyə yollandı və orada baş qaldırmış qiyamın qarşısını aldı. Məhz xalqın böyük oğlu Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanda illərlə davam edən anarxiyaya, başıpozuqluğa, siyasi hakimiyyətsizliyə, etnik separatçılığa, hərbiləşmiş cinayətkar dəstələrin qətl və qarətlərinə, özbaşınalıqlara son qoyuldu. 1994-cü ildə oktyabr, 1995-ci ildə mart aylarında dövlət çevrilişinə cəhdlərin qarşısı qətiyyətlə alındı. Azərbaycanın iqtisadi dirçəlişinin tarixi bünövrəsi də məhz Heydər Əliyevin hakimiyyətdə olduğu dövrə təsadüf edir. Ulu öndərin ikinci dəfə hakimiyyətə gəlişinin ilk illərində iqtisadi sektorda çox böyük addımlar atıldı, islahatlar həyata keçirildi. "Əsrin müqaviləsi" imzalandı, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin tikintisinə başlanıldı, Böyük İpək Yolunun bərpası üzrə konkret addımlar atıldı.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, işğal olunmuş ərazilərin azadlığı Ulu öndər üçün bir nömrəli missiya idi. Əgər Heydər Əliyev siyasi hakimiyyətə gəlməsəydi, Ermənistan daha böyük əraziləri işğal edib onun üzərində nəzarətini hüquqi müstəvidə dünyaya tanıtdıracaqdı. Hələ sovet dövründə ermənilərin yeganə çəkindiyi, ehtiyat etdiyi siyasətçi Heydər Əliyev idi. Ulu öndər hələ 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz olaraq tutduğu vəzifələrdən istefa verəndə buna ilk sevinənlər ermənilər oldu. İstefa verməsindən iki həftə keçməmiş erməni millətçiləri və onların sovet iqtidarında olan himayədarları ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibindən çıxarıb Ermənistanın tərkibinə verilməsi ilə bağlı məsələ qaldırmış və Azərbaycan xalqının faciələri o gündən başlamışdır. Əgər Heydər Əliyev hakimiyyətdə təmsil olunsaydı, heç vaxt erməni millətçiləri bu çirkin əməllərə əl atmağa cürət etməzdilər. Ermənilər onu da etiraf edirlər ki, Prezident cənab İlham Əliyev Qarabağ məsələsində hətta atası Heydər Əliyevdən də daha barışmaz idi. Əlbəttə ki, cənab İlham Əliyevin prinsipial vətənpərvər ruhda formalaşması, müstəqillik, ərazi bütövlüyü kimi həyati əhəmiyyətli məsələlərdə heç bir kompromisə getməmək kimi mövqeyə sahiblənməsi valideynlərinin ailədə aşıladığı tərbiyədən, ideologiyadan irəli gəlir. 2020-ci il 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi qələbə ilə Ulu öndərin yarımçıq qalan missiyasını tamamlayan cənab İlham Əliyev bütün dünyada tarix yazdı. Ulu Öndərin ən böyük arzusu Azərbaycanı bütöv, azad görmək idi. Ulu Öndər Heydər Əliyevin arzuları 27 ildən sonra reallaşdı, Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi. Bu gün Şuşada, Laçında, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Xankəndidə, Ağdərədə üçrəngli bayrağımız əzəmətlə dalğalanır. Qarabağ və Şərqi Zəngəzur müasir tələblərə uyğun olaraq yenidən qurulur. Böyük Qayıdış mərhələli, xüsusi düşünülmüş proqram əsasında həyata keçirilir. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev torpaqlarımızın xilaskarı kimi adını tarixə qızıl hərflərlə yazdırmaqla Ümummilli Liderin 2003-cü ildə xalqa tarixi müraciətində ona göstərilən inamı və etimadı doğrultdu, dahi şəxsiyyətin vəsiyyətini yerinə yetirdi. Əminliklə deyə bilərik ki, qalib Azərbaycan bundan sonra da Heydər Əliyev yolu ilə yeni zəfərlərə doğru irəliləyəcək. Azərbaycan xalqı Ulu Öndərin siyasi kursunu davam etdirməklə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da öz tarixinin yeni, şanlı səhifələrini yazacaq, daha yüksək zirvələr fəth edəcək.

Hələ sağlığında siyasət olimpini fəth etmiş Heydər Əliyevin böyüklüyü öz dövrünün siyasi xadimləri tərəfindən də etiraf olunub. ABŞ-ın sabiq Prezidenti Corc Buşun "şəksiz lider", Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "türk dünyasının tanınan və sevilən lideri", Rusiya Prezidenti Vladimir Putinin "siyasi nəhəng", Fransanın sabiq Prezidenti Jak Şirakın "qeyri-adi şəxsiyyət" adlandırdıqları Heydər Əliyev şəxsiyyətinin nəhəngliyini zaman keçdikcə daha aydın dərk edirik. Ulu öndər Heydər Əliyevin yorulmaz və gərgin siyasi-diplomatik fəaliyyəti, dövlətçilik təcrübəsi, Azərbaycan xalqının milli maraq və mənafeyinə bağlılığı ilə ümummilli rəhbər olduğunu bütün dünyaya bir daha sübut etdi.

**Tahir MİRKİŞİLİ,**
**Milli Məclisin deputatı.**

Respublika .- 2025.- 15 iyun (№ 122).- S.8.